18 avqust / 2020

# İNSANLIĞI QORUMAQ İSTƏYİ

## *Xutra Ramazanın "Solğun bahar" poeması haqqında düşüncələr*

Balakənin Şərif kəndində yaşayıb yaradan, əgər belə demək mümkünsə, əyalətdə həyatını yaradıcılığının ahənginə, yaradıcılığını həyatının ahənginə uyarlayan şair Xutra Ramazanın "Solğun bahar" poemasını oxuyub qurtardım sanki, tükənmiş nəfəsimi təzədən qaytarmaq üçün dərindən nəfəs aldım.

Yanğılı anlar olur, susuzluq çəkən adam bəlkə də qədərindən artıq suyu dolça ilə başına çəkir; birbaşa içir. Əsəri birbaşa su kimi içdim desəm hansı oxucum inanacaq, hansı inanmayacaq?.. Şəkkaklar həmişə var.

Əsəri oxuyub qurtarandan və dərindən nəfəs alandan sonra çox yox, bir az var-gəl elədim. Gördüm ki, intizarım məni üzür. Bəlkə, heç əsər haqqında yaza bilmədim. Qoy, elə isti-isti Balakənə - Şərif kəndinə - o kənddə böyüyüb boya-başa çatmış, müəllimliyi ilə yanaşı, şairliyi ilə də dağlardan üzü Xəzərəcən şöhrət yolu açmış müəllifə zəng eləyim, təəssüratımı bölüşüm: "Xutra Ramazan - Xutrayev Ramazan Mahama oğlu, təbrik edirəm, dövrün ən gözəl əsərini yaratdığına görə... Tam inamla deyirəm ki, indiyə qədər yazdıqların və bundan sonra da yazacaqların bir kənarda qalsaydı belə, təkcə "Solğun bahar" poemana görə ədəbiyyat tariximizin əbədi sakini olacaqsan. Çünki bu əsərdə sadəcə təbiət hadisəsinə - insanın təbiətə müdaxiləsinə və təbiətin bu müdaxiləyə çox aqressiv cavabına münasibət yoxdur, həm də böyük ictimai məzmun var, çünki insan təbiətlə qarşılaşmada hegemonluq iddiası ilə nə qədər davam eləyirsə, bir o qədər özünü məhvə yaxınlaşdırır. Və bütün bunları siz "Solğun bahar" poemasında əhatəliliyi ilə vermisiniz. Bir az da hissə qapılmaq olmasın, əgər səmimi etirafdan söhbət gedirsə, bu əsər dövrümüzün yeni, psixoloji mühitində şedevrdir". Əlbəttə, bu sözlərdən sonra mən təşəkkürlər də eşitdim. Müəllifin bütün varlığını bürüyən həyəcanlarını da onun təşəkkürlərinin içərisindən duya bildim.

Bütün bunlar öz yerində. Bəs söhbət nədən gedir?

Xutra Ramazanın "Solğun bahar" poeması XXI əsrin bəlasına əks səda kimi yazılıb. Və bu mövzuda kimsəyə sirr deyil ki, çoxlu qrafoman yazıları istər sosial şəbəkələrdə, istərsə də mətbuat səhifələrində baş alıb getdi.

Mən bilmirəm harada, necə müsabiqələr keçirildi, amma ədalətli münasibət onu hesab edirəm ki, Xutra Ramazanın "Solğun bahar" poemasının nəşrindən sonra onu müsabiqə keçirənlər axtarıb tapsınlar. Əsərin layiq olduğu dəyəri həm mənəvi, həm də maddi baxımdan ödəsinlər.

Yəqin ki, bu gözlənti başa varmayacaq. Hansı ədalətli, hansı haqlı tindən keçəndən sonra haqqını alıb? Yoxdur, görməmişəm. Xutra Ramazanın "Solğun bahar" poemasına görə də heç olmasa mənəvi haqqını alacağına da o qədər inanmıram.

Əsər "Covid-19" adlı XXI əsrin bəla qəhrəmanının mahiyyətini açmağa həsr olunub. Amma iş burasındadır ki, müəllif "Covid-19" əsarətinin yaratdığı həm inzibati, həm də mənəvi sərhədləri dağıdır. Və eyni zamanda "Covid-19"-un tibbi sərhədlərini də mühafizə etməklə böyük dünya bəlasının təkcə tibbi bioloji köklərini yox, həm də mənəvi psixoloji köklərini aşkarlayır.



Əsər iki hissədən ibarətdir. Müəllif ayrı-ayrı hissələrə ad vermir. Amma hissələrin içərisindəki bölmələrə ad verir. Ayrı-ayrı parçaların, yəni bölmələrin mahiyyətini ifadə edən özündə ehtiva edən mahiyyəti misra ilə, beyitlə, sözlə təqdim edir.

Xutra Ramazanın "Solğun bahar" poemasının birinci hissəsinin ilk bölməsi "Qəmlə gəldi bu bahar, soluxdu gözəl nə var" başlığı ilə açılır. Əgər belə demək mümkünsə, bu iki misralıq, bir cümləlik mətnin içində baharın solğun olmağının mahiyyəti verilir, axı biz öyrənmişik baharın al-əlvan rənglərlə tərənnümünə, axı biz öyrənmişik baharın təbiəti bütün gözəlliyi ilə qaytarmağına, axı biz öyrənmişik baharın insanlara yeni şövq, yeni ilham, yeni ruh gətirməyinə...

Əgər bahar solğundursa, əgər bahar öz donunda gəlmirsə, onda bu bahar - öz rəngində olmayan bahardır. İnsana hansı gücü, hansı mənəvi təpəri gətirə bilər. Burada qəribə bir nüans var: Bahar elə yenə min il bundan əvvəlki ahəngi ilə gəlib. Əgər təbiətdə bir kataklizim yoxdursa, iqlim dəyişikliyindən söhbət getmirsə, bahar elə həmin bahardır. Yenə güllər açılır, yenə bülbüllər cəh-cəh vurur, yenə təbiət min naz ilə insanların könlünü oxşamaq gücündədir.

Bəs arada nə baş verib? Sən demə əgər təbiətin gözəlliyini ruhu ilə, varlığı ilə duyacaq insanın ovqatı baharın gəlişinə köklənmirsə, əgər insan ruhən, qəlbən sevgi ilə, sevinclə baharı qarşılamaq iqtidarında deyilsə, onda baharın təbii ahəngini və rəngini şair necə tərənnüm edə bilər?

Məhz şairin fəlsəfi ümumiləşdirmə gücü, təfəkkür baxımından həyata münasibəti bu yerdə həqiqi reallığı - yəni, insanın düşdüyü psixoloji gərginlikdə, insanın qarşılaşdığı cismani təhlükədə təbiətə münasibəti necə ola bilər?.. Axı insan təbiəti öz əhvalına uyğun qavrayır.

Xutra Ramazan bir müəllif olaraq insan təbiət münasibətləri fonunda insanın özünün dünyaya gətirdiyi bəlalarla təbiətin gətirdiyi bəlanı qarşılaşdırır. Və bu yöndə poetik ruhunun çağlaması ilə bir həyəcan təbili çalır: "*Qəmlə gəldi bu bahar, Soluxdu gözəl nə var. İnsanlıq yer üstündə bir minvalla yaşarkən, Fəlakət yaya-yaya qara yel əsdi birdən. Bu ağrılı dünyanın, bu qayğılı dünyanın ağ gününü tünd etdi, bir dərdini min etdi. Dəyişdi birdən birə həyatın ahəngi də, Aləmə zinət verən təbiətin rəngi də. Bu haranın iqlimi hansı məkan yazıdı? Aprel sazaga düşdü, ürəklər avazıdı. Nubarlı bag - bağatın yarpağı açmaz oldu, Çiçəklər gönçə ikən zavala düşdü soldu. Qızıl gül təravəti maya gəlib cıxmadı, Sona bülbül möhnəti bir naləyə sığmadı. Yenəmi zalım fələk durur insan qəsdinə? Amansız ruzigarın niyyəti nə, qəsdi nə? Qandan əsər qalmadı bir kəsin çöhrəsində, Yox oldu əzəl şuxluq söhbətində, sözündə. Bahar sevdalı könlüm düşdü qış havasına; Həsrət qondu, nəm çəkdi gözümün mayasına.*" Müəllifin mətninə müdaxilə etmədən mətnin formasını dağıtmaq ədəbi tənqidin Tofiq Hacıyev ənənəsi ilə bağlıdır. Və düşünürəm ki bu yerdə bu ənənə xüsusi bir vasitə kimi kara gəlir.

İndi keçək müəllifin həyat hadisəsinə münasibəti baxımından bahara verdiyi rəngə. Əslində, o, baharın solğunluğunun mahiyyətini təbiətin gətirdiyi qorxu ilə təmin eləyir. Təbiətin gətirdiyi qorxu o qədər müthişdir ki, insanlar baharın könül oxşayan rənglərini görmək iqtidarında deyillər. Çünki dəhşətli təhlükə anında sanki bütün gözəlliklər dəyərini itirir. Ümumiyyətlə, bədii əsərdə sənətkarın həm istedadınnan, həm təcrübəsindən, bir sözlə, sənətkarlıq məharətindən asılıdır ki, bir-birinə zidd məqamları qarşılaşdıranda bayağılığa yol verməsin. Bir sözlə, ədəbi təkrar yolu ilə getməsin.

*(Davamı 9-cu səhifədə)*

# İNSANLIĞI QORUMAQ İSTƏYİ

## Xutra Ramazanın "Solğun bahar" poeması haqqında düşüncələr

*(Əvvəli 1-ci səhifədə)*

Ümumiyyətlə, bədii əsərdə sənətkarın həm istedadınnan, həm təcrübəsindən, bir sözlə, sənətkarlıq məharətindən aslıdır ki, bir-birinə zidd məqamları qarşılaşdıranda bayağılığa yol verməsin. Bir sözlə, ədəbi təkrar yolu ilə getməsin. Xutra Ramazan da sənətkarlıq baxımından kifayət qədər güclü sənətkar olduğu üçün o, virusun gətirdiyi bəlanın qəmini, kədərini sadəcə sevinclə qarşılaşdırmır, onu baharla qarşı-qarşıya gətirir. Axı bahar özü elə sevincdir, şadlıqdır, yeni aləm duyğusudur. Və təbii ki bu yerdə müəllif baharı da öz gücündə göstərmək istəyir amma baharın məğlubiyyətini verməyi daha dərin təəssürat oyadır: "*Təbiətin hüsnünə min bəzək vuran bahar, Hər obada, hər evdə toy-bayram quran Bahar! Bənövşə müjdə verib bizə xoş gələn Bahar, Qaranquş qanadında sevinc gətirən Bahar! De, söylə, bəd xəbərlə necə gəldin bu səfər? Ağrısı milyonların yoxluğuna bərabər. Bircə virus çatmırdı bəşərin çiyərinə. Dondu, sarsıldı dünya, min dərdə düşdü yenə.*" Bəlkə də hansısa bir qrafoman oxucu bizə irad tuta bilər. Müəllifin poetik ahəngini pozduğumuza görə ancaq bizim məqsədimiz əsərdəki şeiriyyəti, özü də, kifayət qədər kamilliklə, sənətkarlıqla müəllifin ruhunu ifadə edən şeiriyyəti danmadan onun poetik nəfəsində üzə çıxan ideyasını, cəmiyyətə mesajını çatdırmaqdır. Çünki müəllifin poetik pafosu əslində bu ideyanı təqdim etməyə yönəlikdir.

Müəllif elə bir pafos, elə bir hiss, həyacan motivi seçir ki, oxucu onun düşüncəsinin arxasınca sabit qədəm olaraq yeriyir. Elə ilk misralardanca müəllifin seçdiyi pafos öz oxucusunu sözün həqiqi mənasında dünyanı sarsıdan bir tale yükünün məhsuliyyətinə şərik olmağa səsləyir. Nədənsə mənə elə gəldi ki, Xutra Ramazanın "Solğun bahar" poemasındakı pafos indiki müasir dövrün şüarçılıq pafosundan çox fərqlidir. Müəllifin əsər boyu təqdim elədiyi pafos dünyanı silkələyən təbiət hadisəsinə münasibət çərçivəsində qalmır və bu pafos həqiqi ideyaya xidmət edir. Və bu məqamda Belinskinin pafos haqqındakı düşüncələri yerli-yerində sözümüzə uyğun gəlir: ***"Beləliklə, hər bir poetik əsər pafosun məhsulu olmalıdır, pafosla dolu olmalıdır. Pafos nəzərə alınmazsa, şairi əlinə qələm almağa, nə vadar etdiyini və ona bəzən çox böyük əsəri başlamağa, bu əsəri qurtarmağa nəyin qüvvə və imkan verdiyini anlamaq olmaz. Buna görə də "bu əsərdə ideya vardır, bunda isə ideya yoxdur" təbiri o qədər də düz və müəyyən deyildir. Bunun əvəzinə: "bu əsərin pafosu nədən ibarətdir?" yaxud "bu əsərdə pafos var, onda isə yoxdur" deyilməlidir. Bu daha müəyyən və dürüst olar. Çünki bir çoxları ideyanı bədii əsərdən başqa hər yerdə ideya ola bilən və bu əsərdə görmək istədikləri, lakin əslində, sadəcə olaraq, nəsihətçilikdən ibarət olan bir şeyi ideya kimi qəbul edirlər ki, bu şey də yoxsul formanın baxyalanmış şalpa-şülpəsi ilə bir təhər örtüldüyünə baxmayaraq yenə də bütün çılpaqlığı ilə meydana çıxır".*** Ədəbi tənqidin klassiki nə qədər doğru deyir: əgər əsərin içində həqiqi bir ideya, yəni müəllifin oxucuya aşılamaq istədiyi bir nəsnə yoxdursa, onu ədəbi tənqid adamı nə qədər söz-sov içinə bürüsə də yenə kasıb mahiyyət görünəcək.

*(Davamı 15-ci səhifədə)*

# İNSANLIĞI QORUMAQ İSTƏYİ

## Xutra Ramazanın "Solğun bahar" poeması haqqında düşüncələr

*(Əvvəli 9-cu səhifədə)*

Ustad Xutra Ramazanın "Solğun bahar" poeması qabarıq düşüncə tərzi ilə ideyasını aşkarlayır. Müəllif təbiətdən gələn hadisə ilə cəmiyyətin mənəvi mühitini qarşılaşdırır. Nəhayət, belə bir düşüncə oxucuya təlqin olunur ki, insanın içindəki mənəvi virus təbiətdən gələn virusdan daha güclüdür və əlbəttə ki, həm də daha qorxuludur. V.Q.Belinski bədii əsərin XIX əsrdəki pafos anlamını, əslində, müəllifin məqsədi və məramı kimi şərh edir.

Biz sanki V.Q.Belinskinin XIX əsrdə qalmış "pafos" anlayışını Xutra Ramazanın "Solğun bahar" poemasında ən səmimi tarixi kökündə qavrayırıq. V.Q.Belinski fikrinə davam edir: ***"Pafos tamamilə başqa bir şeydir. Hər cür estetik duyğudan tamamilə məhrum olmaq lazımdır ki, soyuq, cansız bir əsərdə pafos axtarasan, çünki belə əsərdə yağ suya necə qarışırsa, ideya ilə forma da eləcə birləşmiş olur və ya qara parça üzərində ağ sapla köklənmiş tikişə bənzəyir".*** **(V.Q.Belinski "Rus klassikləri haqqında" Bakı 1954, Səh.96).** Belinski zamanındakı pafos düşüncəsi ideyanı müəllifin mənəvi mövqeyini ifadə edirdisə, indiki anlamda pafos yuxarıda qeyd etdiyimiz kimi daha çox bayağı şüarçılıq anlamında başa düşülür. Sözün həqiqi mənasında şairin həyəcanlarını, şairin ürək titrəmələrini ifadə edən pafosun heç bir şüara ehtiyacı yoxdur. Bu mənada müəllif əsərin ruhuna hopdurduğu ağrı-həyəcan yükü ilə cəmiyyətə öz xəbərdarlığını çatdırır.

Xutra Ramazanın "Solğun bahar" poemasının birinci hissəsinə aid olan ikinci bölüm də ikinci bölüm "Virus" adlanır. Müəllif bu bölümdə bəşəri sarsıdan virusun yerini, məkanını onun təhlükə sərhədlərini, bir sözlə, bütün bəşəriyyəti xüsusi vahimə ilə qarşılaşdıran bir düşməni xarakterizə edir. Onun təqdimatında biz bəşəri hədələyən yeni virusun tərcümeyi halını görürük istərdik ki, oxucu da bu virusun poetik tərcümeyi-halını özü oxusun və inansın ki, min il bundan sonra da bu virusun tərcümeyi halını oxuyan hər kəs onun dəhşət dərəcəsini olduğu kimi təsəvvür edə biləcək. Beləliklə, virus bölməsində oxuyuruq: *"Ah bu lənətə gəlmis Koronovirus bəlası - Ərzi cənginə alan Əsrin Pandemiyası. Hardan düşdü bu bəla insanlıgın canına, Caynagına keçəni qəltan edir qanına? Bir gün uzaq Uhandan gələndə qanlı xəbər Birdən saraldı üzlər, sarsıldı bütün bəşər. Bir suala bənd oldu. hamı təlaş içində Bu mikrobun rüşeymi nədən cücərdi Çində? Hərə bir cür düşündü, hərə bir yerə yozdu. Deyən oldu: Uzaqdır, bizə qorxusu azdır. Fəqət göz qırpımında Çin Səddini aşaraq Uçdu o, ölkə-ölkə ölüm xofu saçaraq. İldırım sürətiylə yayıldı kabus kimi, Bir fəlakət gormƏmiş aləm bu virus kimi. Onun qəfil dalğası okeanlar aşanda; Heç yerə fərq qoymadan qitələr dolaşanda; Azğınlaşıb cəlladtək hüdudları aşanda; İnsanın ciyərinə ruhuna daraşanda Birdən ayıldı bəşər, Ayıldı, gördü bəşər: Pandemiya baş alır, məəttəl qaldı bəşər. Allah, bu nə bəladır gətirdin yer üzünə? Yaratdıgın xilqətin günahı nə, suçu nə? Bu nə müsibətdir ki, ürəklərə dərd salıb; Təbiət də, elm də yanında aciz qalıb. Onsuz da dünya evi insanlığa dar olur. Günü - gündən bəşərin hövsələsi daralır. Nə yaman zəhərləndi yeni əsrin havası? Qulaqlardan getməyir qriplərin sədası. Bir ara quş qripi vay-şivən salmadımı? Insanlar quş ətinə tamarzı qalmadımı? Sonra donuz qripi tük ürpətdi bir daha. Başabəla cahanda güman varmı sabaha?! Indi də bu xar olmus əsabləri korlayır; Canda ürək qoymayır, ürəkdə can qoymayır. Lənətə gəlmiş virus layiqsə də nifrətə, Yeni cildə girərək düşdü bizim lüğətə. Bu - ətürpədən kəlam, ürək ağrıdan addır; Dilimizə də yaddır, ruhumuza da yaddır."* Şair virusun təsvirini əvvəlcə sanki biologiya elminin təqdimi əsasında şərh edir. Və bir az da virusların yaxın keçmişdəki insan cəmiyyətinə "səyahətlərini" xatırladır. Quş qripini yada salır, donuz qripini yada salır, hətta bu virusların indiki anlamdakı təhlükəsindən çox zəif olan təbiətlərini də, eyni zamanda fəsadlarını da göstərir. Doğrudan da, quş ətini yeməyin uzun müddət nə qədər tərəddüdləqarşılanması, donuz qripində yüz minlərlə heyvanın məhv edilməsi, elə milyonlarla ev quşlarının məhv edilməsi də... bütün bunlar heç də uzaq keçmişdə deyil, müəllif maraqlı keçid eləyir. Belə çıxır ki, təbiətə qarşı bu cür mübarizə hardasa müəyyən səhvlərlə müşayiət olunub. Demək, elm gücsüz olub, elm zəif olub. Yoxsa, indiki pandemiyanın - "Covid-19" adlı virusu belə bir sual doğurur: Biz qripə yoluxmuş milyonlarla quşu, qripə yoluxmuş milyonlarla donuzu məhv edirdiksə, onda insanlarıdamı kütləvi şəkildə məhv etməliyik, məhz yoluxduqlarına görə. Demək, insan xəstəliyin təbiətinə qarşı humanizm prinsiplərini axıracan qorumalıdır. Ona görə də müəllif yeni virusu, əslində, bioloji istiqamətdə yox, sosioloji istiqamətdə xarakterizə edir, onu iblis adlandırır, onun təbiətinə qarşı dayana biləcək gücü daha üstün hesab edir. Bu şərtə ki, o güc nə təbiətə ziyan vursun, nə də insanlığa. Yoxsa, müəllifin məxsusi olaraq vurğuladığı kimi, bu virus qəddar bir cəllad kimi insanlığın təkcə cisminə yox, həm də onun mənəvi mühitinə dağıdıcı zərbə endirəcək.

Təsadüfi deyil ki, Xutra Ramazan "Solğun bahar" poemasında insanların necə bir-birindən qaçmasını, insanların necə bir-birinə yadlaşmasını ürək ağrısı ilə təsvir edir. Burada "təsvir edir" sözü bəlkə də, yerinə düşmür. Çünki müəllif əsərin əvvəlindən axırına qədər xüsusi bir ritm və ahənglə poetik üsluba sadiq qalır. Əsərini ziddiyyətlə dolu bir dastan kimi yazır. Ayrı-ayrı məqamlarda bu ziddiyyətlər toqquşur, bir-birilə qarşı-qarşıya gəlir və nəhayət, müəllifin təfəkkürünə uyğun ustalıqla insanlara mesaj olunur. Laqeydlikdən, korafəhmlikdən, savadsızlıqdan, qanuna, tələbə məhəl qoymamaqdan... kənar durmaq yeganə xilas yolu kimi təqdim olunur. Başqa sözlə, o, öz oxucusuna və gələcəyin insanlarına çatdırır ki, əgər siz - hər hansı biriniz cəmiyyətin xilası naminə qoyulan tələblərə əməl etməsəniz birinci növbədə qurban özünüz olacaqsınız.

Xutra Ramazanın "Solğun bahar" poemasını oxuyarkən uzun əsrlər bundan əvvələ xəyalım getdi... İbni Sinanın insanları qorumaq tələbinə nadanlar necə qarşı çıxırlar? Necə böyük müqavimət göstərirlər. Əvəzində daha minlərlə insan həlak olur. Bütün bunlar o deməkdir ki, zamanlar dəyişə bilər, vaxt seli öz tarixini sürətlə əvəzləyə bilər. Amma böyük bəla önündə tarixi düsturlar var ki, onlar dəyişməzdir, onlar əbədidir. Və Xutra Ramazanın poetik təfsirində sanki biz İbni Sİnanın özünün XXI əsrdəki təzahürünü görürük. X.Ramazan necə dəqiqliklə verir; kimlər pandemiyanın qurbanı olacaq: *"Bir məkrli iblisdir, gözə görünməz qəti. Cəlladdan da qəddardır, can almaqdı niyyəti. Qorxulu nağıllarda əcaib div kimidir, Bir başını kəsirsən yeddi başı göyərir. Sivri qılıncını o, sağa-sola siyirir. Nə bir ömrə acıyır, nə də səngimək bilir. Gün-gündən azğınasır o sahibsiz sərsəri, Məhşər ayağınamı çəkir yenə bəşəri? Hər an ölüm qorxusu- neçə ocaq qaralır, Neçə ömür dastanı hələ bitməmiş qalır, Hər gün min- min saf arzu yerin altına köcur, Min-min nurlu ürəyə əbədi zülmət çökür, Ailələr üstündən gedir ərlər - ərənlər, Milyonu ötür artıq cahanda can verənlər. Harda zəif halqa var, o da oranı seçir; Taleyi qırılmışı, bəxti qaranı seçir; Canından, ciyərindən məriz olanı seçir; Ahıl qocanı seçir, hətta, cavanı seçir. Boynunda usağıyla nakam ananı seçir, Ömrü şən, günü xosbəxt körpə fidanı secir. Bu böyük müsibətə laqeyd qalanı seçir; Ömür adlı sərvəti qorumayanı seçir;".* Necə gözəl təsvir, necə aydın düşüncə... səhiyyə marifinin gücü çatmayacaq dərəcədə aydın, dəqiq, təlqin...

Müəllifin təbiətindən irəli gələn humanist mövqe. Həyata insanpərvərlik münasibəti insanı qorumaq istəyi o qədər dərəcədə qabarıq görünür ki, istər-istəməz hər hansı bir oxucu, hətta ən korafəhm oxucu belə müəllif möğvqeyindən sonra öz taleyi haqqında düşünməli olur. Ən başlıcası, bu düşüncələr, bu nigaranlıqlar təkcə elə bu əsərlə, bu zamanla bitib tükənmir. Və düşüncəli oxucuda belə bir qənaət yaranır ki, gələcəyin insanları da belə bir bəla iolə rastlaşanda təhlükənin mahiyyəti haqqında düşünsünlər. Bilsinlər ki, 1, 2, 3... milyonlar, milyardlar üçün düyil bu təhlükə. Bu təbiət və cəmiət qarşılaşmasıdır. Bu "qarşılaşmada yalnız ağıl, düşüncə məsələyə elmi yanaşma qalib gələ bilər. Xutra Ramazanın əsərinin dəyəri burasındadır ki, o, məsələyə Ümumdünya Səhiyyə Təşkilatpının (ÜST) tələbləri səviyyəsində yanaşa bilib. Yəni, dünya elminin qərəzsiz, irqsiz, sinifsiz mahiyyətində insanı qorumaq istəyinin tələbləri ilə qələmə alıb.

Xutra Ramazanın "Solğun bahar" poeması zaman keçdikcə əhatə dairəsinə görə müxtəlif peşə, sənət, ixtisas sahiblərinin maraq dairəsində olacaq. Çünki o, cəbhəni bir istiqamətdə təsvir eləmir. bütün qlobal yükü ilə təqdim edə bilir. əslində o, virusla mübarizəni düşmənlə müharibə kimi təqdim edir. Böyük müharibənin generalları var. Amma bütün müharibəlrdə ölümləri və faciələri öz sinələri ilə qarşılayan əsgərlər var.

Xutra Ramazanın "Solğun bahar" poemasında biz böyük müharibənin əsgərləri timsalında həkimləri görürük: "*Dolur xəstəxanalar, Dolur təcridxanalar. Qorunmaq! Evdə qalmaq! Olur dillər əzbəri. Hökumət -güman yeri, təbiblər - aman yeri. Həkimlər gecə -gündüz ölümlə əlbəyaxa. Hippokrat andı içən çəkinməz, qorxmaz daha. Ay əlləri şəfalı, Urəyi nurlu həkim. Necə də şərəflidir Ömrünün yolu həkim! Gözünə əcəl alıb Ölümlə əlləşirsən, Bəşərin xilaskarı- Göydə Rəbbim, Yerdə sən. Üzülmə, bu savaşda Nəsibin məşəqqətdir. Əvəzində qazancın Sevgidir, məhəbbətdir. Tanrı səni göndərib Bizlərə loğman, həkim, Dünyaya şəfqət gətir, Aman həkim, can həkim! Ah, bu ölüm harayı nə kecir, nə azalır."* Əsərin mənfi qəhrəmanı virusdursa, əsərin qurban timsalında əzabkeşi insandırsa, ona qarşı duran qüvvə əlbəttə həkimdir. Çünki həkim özü üzbəüz döyüşçüdür. Öndə olan əsgərin taleyi isə şəhidlikdir.

Heç şübhəsiz pandemiya ilə mübarizədə həlak olan həkimolərmizə şəhidlik statusu veriləcək. Bunu Xutra Ramazanın "Solğun bahar" poemasının faciə qəhrəmanı olan həkimlər də gələcəyə sual kimi ünvanlayırlar.

Müəllif dərin təəssürat və həyəcanla pandemiyaya qarşı mübarizə mühitinə işıq salır. O, hər bir söz üilə, hər bir poetik misrası ilə qəlbləri həyəcanlandırmaq yolu keçir. Bununla xatırladır ki, hələ uzun müddət davam edəcək pandemiya rejimindən, təhlükədən xilas olmaq yoludur, özü də yeganə xilas yoludur. Müəllif alimlərin, icra orqanlarının düşüncəli insanların tələblərini hələik nicat yolu kimi görür. Və biz bunu təbii qəbul edirik. Çünki biz özümüz də bu günü n içindəyik və təbii ki, bu hissləri də müəliflə birgə yaşayırıq. Anacaq müəllifin heyrət doğuracaq təbiəti yəni bəşəri qorumaq istəyi yolundakı mbarizəsi sözə çevrildiyi üçün biz onun hər bi sözünü canlı olaraq insan kimi nəfəs alan, bizimlə üzbəüz danışan kimi təsəvvür edirik. Onun insanlığa müraciəti nə qədər təbiidir, nə qədər dolğundur: "*Dövlətin rəsmiləri həyəcan təbili çalır. Qadagalar, təcridlər kara gəlmir çox zaman, Karantin rejiminə biganə qalır insan. Fəlakət də, ölüm də adiləşir elə bil. Anlayan gərək, axı, bu hənə əndən deyil. O, xərçəngtək bəşərin bədəninə yeriyir, Nə təbabət, nə təbib öhdəsindən gəlməyir. Hüdudsuz kamalıyla kainatı dolaşan, Asimanı yurd edib Aya, ulduza uçan, Yerin bağrını yaran- möcüzələr yaradan, Dənizdə şəhər salan, Atomdan işıq alan- nüvəsini ram edən, Hər çətin riskə girən, Ağlasığmaz iş görən insan əqli, idrakı Pandemiya yanında aciz qalır hələ ki. Alimlər bas sındırır tapılmayır çarəsi Zirvəsinə catmayıb, deyən, insan zəkası Hələki nicat yolu hər kəsin özündədir: Sağlam düşüncəsində, yaşamaq əzmindədir: Qorunun, ey insanlar, sağlam həyat naminə, Qorunun ki, yer üzü düşməsin qara gunə. Qorunun, qəm görməsin doğma -əzizləriniz. Bilin ki, qorunmaqla min-min insan ömrünə təminat verirsiniz."* Beləliklə, Xutra Ramazanın müasir dünya - müasir insan taleyinə cavabdehlik missiyası həqiqi yanğı ilə, həqiqi və səmimi insan düşüncəsi ilə daşıdığı məsuliyyət missiyasının təzahürü kimi araya-ərsəyə gəlmiş Solğun bahar" poeması təkcə bu günün insanlarına yox, həm də gələcəyin insanlarına əmanətlənmiş bir məktubdur.

Şair məktubu Allahın əmanətidir.

***(Davamı var)***

***Əli Rza XƏLƏFLİ***

***17.08.2020***